IQRO JURNALI , IQRO JOURNAL, ИКРО ЖУРНАЛИ
ISSN:2181-4341| wordlyknowledge.uz/index.php/iqro
Volume 24. Issue 02. Noyabr ,2026

Milli sözlərdə orfoqrafiya normalarına əsaslanan

İbrahimova Aytən
Azərbaycan Dövlət Pedaqoji Universiteti
MAD kafedrasının müəllimi
Email: ayten.cavadova17@gmail.com
ORCID ID;0009-0000-6123-2399
fonetik qənaət hadisəsi
https://doi.org/10.5281/zenodo.24289145

Abstract

This article examines the phenomenon of phonetic economy based on orthographic norms in native words of the Azerbaijani language. Phonetic economy is considered one of the significant processes contributing to the historical development and structural simplification of the language. Historical linguistic materials demonstrate that the transition from closed and covered syllables to more open and uncovered syllable structures was a long-term process associated with the principle of economy and the tendency toward easier pronunciation.

The study focuses on the main manifestations of phonetic economy observed in native Azerbaijani words and grammatical forms. Particular attention is paid to the omission of individual consonants and vowels in different phonetic positions. The historical reduction of consonants such as b, y, l, q, r, as well as the vowels ı and i, is analyzed through examples from historical and modern Azerbaijani. The development of the postposition ilə from its historical forms, the reduction of the initial y in words such as yıl–il, yıldız–ulduz, yılan–ilan, and yürək–ürək, and the loss of l in forms such as gəltirmək–gətirmək and olturmaq–oturmaq illustrate the historical role of phonetic economy. Similar processes can be observed in the reduction of final q, the loss of r in the historical form erdi/irdi, and the simplification of consonant clusters. The article also discusses phonetic economy in modern grammatical forms. Examples include vowel reduction in possessive forms such as boyun–boynun, vowel loss in the pronouns bura, ora, and hara in certain case forms, simplification of doubled consonants in words such as xətt–xətlər and sirr–sirlər, and consonant reduction in verbal forms. The omission of sounds in the past, future, and present tense forms of verbs demonstrates that phonetic economy operates not only at the lexical level but also within the grammatical structure of the language. The analysis shows that phonetic economy has played an important role in the historical evolution of Azerbaijani. The reduction and simplification of sounds have contributed to easier pronunciation, shorter phonetic structures, and the stabilization of certain forms in the modern literary language. Thus, the tendency toward economy should be regarded not as a sign of linguistic impoverishment, but as a natural feature of language development and structural adaptation.

Keywords: Azerbaijani language, phonetic economy, orthographic norms, historical phonetics, sound reduction, sound loss, native words, syllable structure, consonant reduction, vowel reduction, language development.

Milli sözlərdə orfoqrafiya normalarına əsaslanan fonetik qənaət hadisəsi dilimizin tarixində özünü daha çox göstərmişdir.Tarixi materiallar göstərirki, qapalı hecalar kimi, örtülü hecalar da dilimizin qədim dövrü üçün olduqca səciyyəvidir. Dilimizin tarixində qapalı hecaları açıq hecalara, örtülü hecaların örtüsüzlərə inkişafı uzun sürən qənaət prosesi kimi izah edilə bilər. Milli sözlərdə orfoqrafiya normalarına əsaslanan fonetik qənaət hadisəsinin aşağıdakı təzahür formaları var.

1.Tarixən bir çox sözlərdə yüksək işlənmə tezliyinə malik **"b"** səsi bir qədər zəifləyərək tələffüzdə qənaət edilmişdir və ədəbi dildə sabitləşmişdir. Məsələn ədəbi dildə -la-lə şəklində sıx işlənən ilə qoşması tarixən birlən-birlə-berlə-belen-ilə-la-lə şəklində işlənmişdir. Birlə, bilə qoşması iki tərkib hissədən əmələ gəlmişdir; yəni say bildirən bir sözünün feil düzəldən –lə şəkilçisi və qədim feili bağlama şəkilçisi **–n-** ünsürü ilə birləşməsindən düzəlmişdir. Bir-lə-n vaxtilə birlikdə, vəhdətdə demək imiş.Lakin sonralar tədricən inkişaf edərək, müstəqil bir sözdən köməkçi bir sözə keçib, qoşma məzmunu kəsb etmişdir. [13,208] Bu qoşma tarixən ismin "alət halı"nı bildirib, müasir dövrdə adlıq və yiyəlik hal şəkilçisi tələb edir. Qoşma kimi işlənməklə yanaşı bağlayıcı və şəkilçi kimi də işlənir. Tarixən söz şəklində olub hal-hazırda şəkilçiləşməyə doğru dəyişməkdədir. Bu dəyişim prosesinə qənaət öz təsirini göstərir.

2.Tarixi faktlara baxdıqda görürük ki, bir qrup sözün əvvəlində **"y"** səsi işlənmişdir, sonralar isə qənaət prinsipi ilə bağlı sözlərdən düşmüşdür. Buna səbəb tarixən dilimizdə hecaların çoxu örtülü olmuşdur, lakin açıq və örtüsüz hecalılığa meyl qənaət prinsipinə gətirib çıxarmışdır. Bu sıraya yığval-iqbal, yıl-il, yıldız-ulduz, yılxı-ilxı, yılan-ilan, yürək ürək, yigit-igid, yigirmi-iyirmi, yüzük-üzük, yuca-uca və s. sözləri göstərmək olar. Dil faktlarını qruplaşdırarkən belə qənaətə gəlirik ki, y samitinin qənaətinə sözün əvvəlində olmaqla yanaşı sözün ortasında və sonunda da təsadüf edilir. Buna səbəb çoxhecalılıqdan azhecalılığa keçid, tələffüzü asanlaşdırmaq məqsədi daşıyır. Məsələn: böylə [12, 133]-belə [3, 77], eylə [11, 226]-elə [3, 197], yaykala [6, 57]-yaxala [3, 679], atay [1, 272]-ata [2, 54], buğday [13, 188]-buğda [4, 55], nəy [8, 21]-nə [2, 481], dey [1, 272]-de [2, 154], yey [1, 272]-ye [2, 697], yuy [1, 272]-yu [2, 707] və s.

3. Bəkir Çobanzadə söz ortasında **"l"** səsinin düşməsindən bəs edir və gəltirmək-gətirmək (lüğət), olturmaq –oturmaq (lüğət) sözlərini misal göstərir. Müasir ədəbi dilimizdə bu sözülərdəki **"l"** səsinin qənaəti özünü göstərərək gətirmək oturmaq şəklində sabitləşmişdir. Müasir ədəbi dilimizdə işlənən **bəri** qoşmasının qədim şəkli **bərlu** formasında olmuşdur. Ehtimala görə, bərlu qoşması mürəkkəb söz olub, birinci tərkib hissəsi işarə əvəzliyi bu, ikinci tərkib hissəsi isə əvvəllərdə müstəqil söz, sonralar isə şəkilçiləşmiş ünsürdən ibarətdir. XV əsrə aid Azərbaycan dili materiallarında rast gəlirik. Məsələn: Ol zamandan bərlu kim çeşmim yuzini görmədi: Sən gedəndən bərlu necə zaru-əfğan etmişəm . (Xətai) [13, 195]. Bəri qoşmasının tarixi formasına baxdıqda "l" samitinin qənaətini görürük.

4.Tarixi faktlar göstərir ki, söz sonunda **"q"** samiti əvvəllər işlənmiş, sonralar qənaət olunmuşdur. Buna səbəb dilimizin əvvəlki dövrləri üçün səciyyəvi olan qapalı hecalar açıq hecalı köklərə çevrilməsidir. Məsələn: qapıq (kapığ) [5,63]-qapı [3, 371], sarıq [5,63] sarı [2, 553], uluq [7, 14]-ulu [2, 655], ayruq\\ayrux\\ayruğ-ayrı, başqa, özgə. Həqqi bilənə ayrux zənnü güman gərəkməz (Nəsimi)...[10,178]

5. **"I"** saiti qapalı səsdir. Qapalı saitlər isə qənaətə meyilli olur. Tarixən söz kökündə işlənən ı saiti bir qism sözlərdən düşmüşdür. Bəzi misalları nəzərdən keçirək. Məs: ağıla [11, 154] ağla [2, 28], altımış [5, 96]-atmış [2, 39], ayırıl [4, 55]–ayrıl [2, 63], qırıx [4, 166] qırx [2, 394] və s.

6. **“İ”** saiti sözün bütün mövqelərin də, əsasən adi kəmiyyətdə işlənilir. Çoxhecalı sözlərdə i saitinin söz daxilindəki yeri qeyri-sabit, kəmiyyəti isə müxtəlif olur, sözlərin ortasında işlənən zaman müəyyən məqamda qısa tələffüz olunur və nəticədə i saitinin qənaətinə səbəb olur. Məsələn: bərik [4, 149]-bərk [2, 84], yetimiş [5, 96,)-yetmiş [2, 700], Şəmkir bölgəsindəki Dəlilər toponimi i saitinin qənaəti nəticəsində Dəllər [9, 49] şəklinə düşmüşdür.

7. **“R”** samiti. Azərbaycan dilində r sonor samiti nisbətən az və bütün saitlərlə yanaşı işlənən səsdir. Bu samit səs titrək səs olduğundan sözün ortasında, əsasən birinci hecasında qənaət olunmuşdur. Hətta bir çox şəkilçilərin formalaşmasında r samitinin qənaətinin rolu vardır. Məsələn: erdi\irdi (köməkçi feil)- idi [2, 294]. Müasir ədəbi dilimizdə işlənən idi hissəciyinin qədim şəkli erdi\irdi köməkçi feilləri olmuşdur. Lakin zaman keçdikcə sözün tərkibindəki r səsi zəifləyərək ixtisara uğramış, müasir dildə idi, -dı, -di, -du, -dü şəklində işlənərək, sabitləşmişdir. Dilimizin tarixinə nəzər salanda aydın olur ki, müasir ədəbi dildə işlənən leksik vahidlərin bir hissəsinin qədim forması dəyişilmiş, müasir dil baxımından fonetik fərqlər yaranmışdır. Fonetik fərqlərin böyük qismi məhz qənaət hadisəsi nəticəsində baş vermişdir. Bu isə öz növbəsində dilin qənaətə meylli olması və dil özü mürəkkəbləşməyə deyil sadəliyə meyl etməsi ilə əlaqədardır. Dilin qənaətə, sadəliyə meyl etməsi onun bəsitliyini deyil, əksinə inkişaf səviyyəsinin yüksək olduğunu göstərir.

Müasir Azərbaycan ədəbi dilində işlənən feillərin ilkin forması ilə müəyyən fonetik fərqlərin mövcudluğu nəzərə çarpır. Bu feillərin böyük qismində məhz qənaət prinsipi müşahidə olunur. Məsələn : qarp [5, 82]- qapmaq (qapışmaq, qapdırmaq və s.) [5, 82] Qarpmaq sözündə r cingiltili səsinin qənaəti nəticəsində müasir forması yaranmışdır.

8. Mənsubiyyət şəkilçiləri artırıldıqda ikinci saiti –qapalı saiti düşən milli sözlər: beyin, alın, ağız, burun, boyun, qoyun (ağuş), çiyin, qarın, oğul, əyin, qayın və s. boyun-un boynun.

9. Bura, ora işarə əvəzlikləri, habelə hara sual əvəzlikləri ismin yerlik və çıxışlıq hallarında kök morfemlərdəki a saitini itirir: bura-da-burada-burda, bura-dan-buradan-burdan, ora-da orada-orda, ora-dan-oradan-ordan, hara-da-harada-harda, hara-dan-haradan-hardan. Eyni vəziyyət həmin əvəzliklərin yönlük halına da aiddir. Lakin buzaman kökdəki a saitinin, yoxsa şəkilçininmi düşdüyünü söyləmək çətindir.

10. Qoşa samitlə bitən sözlər samitlə başlanan şəkilçi qəbul etdikdə kök morfemlərdəki qoşa samitlərdən biri düşür: xətt-lər-xətlər, hiss-lər-hislər, sirr-lər-sirlər, hədd-siz-hədsiz və s.

11. Feilin nəqli keçmiş zaman formasının üzərinə ikinci şəxsin tək və cəminin şəxs sonluğu artırıldıqda zaman şəkilçisindəki -ş- samiti düşür: baxmış-san-baxmısan, baxmış-sınız baxmısınız, sevmiş-sən-sevmisiniz, sevmiş-siniz-sevmisiz, eşitmiş-sən-eşitmisən, eşitmiş siniz-eşitmisiz və s.

12. Feilin qəti gələcək zaman formasının birinci şəxsin təkində və ikinci şəxsin tək və cəmində zaman şəkilçilərindəki k və q samitləri düşür: al-acaq-san-alacasan, gəl-əcək-əm gələcəm və s.

13. Feilin indiki zaman formasının inkar şəklində a saiti və y samiti, başqa sözlə, ay səs birləşməsi düşür: gəl-mə-yir-gəlmir, gör-mə-yir-görmür, sev-mə-yir-sevmir, oxu-ma-yır oxumur və s.

14. Sıra sayıdüzəldən -ıncı, dördvariantlı şəkilçisi saitlə bitən miqdar sayı kökünə bitişdirildikdə şəkilçinin başındakı sait səs qənaətə uğrayır: iki-ncı-ikinci, altı-ncı-altıncı, yeddi-nci-yeddinci və s.

ƏDƏBİYYAT SİYAHISI

1. Axundov A. Azərbaycan dilinin fonetikası. Bakı: Maarif, 1984, 392s
2. Azərbaycan dilinin orfoqrafiya lüğəti. Bakı: Lider nəşriyyatı,2004,728 s.
3. Azərbaycan dilinin orfoqrafiya lüğəti. Bakı: "Şərq-Qərb" nəşriyyat evi, 2013, 840 s.
4. Cəlilov F.A. Azərbaycan dilinin morfonologiyası. Bakı: Maarif, 1988, 285 s.
5. Dəmirçizadə Ə. M. 50 söz. Bakı: Gənclik, 1968, 104 s.
6. Əhmədov B. B. Azərbaycan dilində leksika məsələləri (şivələrdə söz yaradıcılığı). Bakı : Maarif, 1990, 140 s.
7. Əhmədov B. B. Azərbaycan dili söz yaradıcılığında sadələşmə meyli (şivə materialları əsasında) Bakı: APİ nəşri, 1990, 90 s.
8. Əhmədov B.B. Azərbaycan dili şivələrində fono-semantik söz yaradıcılığı. Bakı: BDU nəşri,1994, 200s
9. Əhmədov T. M. El-obamızın adları, Bakı: Gənclik, 1984, 128 s.
10. Əzizxan T. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı, "Elm və təhsil", 2012, II nəşr, 464 s
11. Hüseynzadə M.Müasir Azərbaycan dili.(Morfologiya) Bakı:1963,275 s.
12. Məmmədov N. Azərbaycan dilçiliyinin nəzəri əsasları. Bakı: Maarif, 1971, 368 s.
13. Mirzəzadə H. Azərbaycan dilinin tarixi qrammatikası: Dərslik, işlənilmiş və əlavələr edilmiş 2-ci nəşri. Bakı Azərbaycan Universiteti nəşriyyatı, 1990, 376 s.